**AZƏRBAYCAN RESPUBLİKASI BAKI ŞƏHƏRİ**
**BİNƏQƏDİ RAYONU İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**
**SƏRƏNCAMINDAN ÇIXARIŞ**

**№ 106** **04 iyun 2025-ci i**

**Binəqədi rayonunda Qurban bayramı ilə əlaqədar tədbirlərin icrasında qida təhlükəsizliyi tələblərinin yerinə yetirilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin "Heyvan kəsimi fəaliyyətinin tənzimlənməsi haqqında" 2018-ci il 11 iyun tarixli 199 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə, Qurban bayramı ərəfəsində və bayram günlərində heyvan kəsiminin müasir tələblərə uyğunlaşdırılması, qanunsuz heyvan kəsimi fəaliyyətinin qarşısının alınması və qida təhlükəsizliyinin təmin edilməsi barədə tədbirlərin sistemli və kompleks şəkildə həyata keçirilməsi məqsədilə "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 4.3.5-ci və 6.8 bəndlərinə əsaslanaraq

**Q ə r a r a   a l ı r a m:**

1. Binəqədi rayonu ərazisində Qurban bayramı ilə əlaqədar keçiriləcək tədbirlərin təşkili üzrə aşağıdakı tərkibdə işçi qrupu yaradılsın;
   - Hacıbaba Babayev- Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini;
   - Rauf Həsənov- Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri;
   - Vüsalə Eyvazova - Hüquq şöbəsinin müdiri;
   - Nicat Allahverdiyev- İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri;
   - İskəndər Cahangir-zadə-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri;
   - Azər Kərimov- Rayon təsərrüfatı şöbəsinin müdiri;
   - Sabir Əliyev- Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri
   - Elmin Zamanov- Binəqədi Rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyinin rəisi;
   - İsa Həbibzadə - Binəqədi Rayon Polis İdarəsinin İctimai təhlükəsizlik şöbəsinin rəisi, polis polkovnik-leytenantı;
   - Qadir Məmmədov- Rayon İcra Hakimiyyəti başçısının Binəqədi qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi;
   - Fərdi Ağamalıyev- Rayon İcra Hakimiyyəti başçısının Biləcəri qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi vəzifəsini müvəqqəti icra edən;
   - Ramil Abasov- Rayon İcra Hakimiyyəti başçısının Xocəsən qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi vəzifəsini müvəqqəti icra edən ;
   - Araz Şiraliyev- Rayon İcra Hakimiyyəti başçısının 28 May qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi vəzifəsini müvəqqəti icra edən;
   - Zaur Qafarov- Rayon İcra Hakimiyyəti başçısının M.Ə.Rəsulzadə qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi;

Scanned with CamScanner

- Mübariz Məmmədov- Rayon İcra Hakimiyyəti başçısının 1 nömrəli sahə inzibati ərazi dairəsi üzrə nümayəndəsi;
- Dilbər Şükürova- Rayon İcra Hakimiyyəti başçısının 2 saylı sahə inzibati ərazi dairəsi üzrə nümayəndəsi;
- Fədai Hacıyev- Rayon Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru;

2. İşçi qrupu tərəfindən Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyindən qeydiyyatdan keçmiş kəsim məntəqələrinin yanında, kəsim məntəqələri olmayan ərazidə isə diri heyvan satışının həyata keçirilməsi üçün mövcud tələbat, habelə müvəqqəti kəsim düşərgələrinin yaradılması üçün zəruri şəraitin olması nəzərə alınmaqla, baytarlıq-sanitariya və sanitariya-gigiyena tələblərinə cavab verən müvafiq yerlər müəyyən edilmişdir ( dislokasiya əlavə olunur) ;
3. Qurbanlıq heyvanların diri halda satışının təşkili üçün sözügedən düşərgələrin yaxınlığında satış düşərgələrinin yaradılması və bu düşərgələrə ( satış və kəsim üzrə müəyyən edilmiş yerlər) gətirilən heyvanların, kəsim məntəqələrinin baytar həkimləri tərəfindən müayinə olunmasından sonra kəsilərək təhvil verilsin;
4. Müəyyən edilmiş yerlərdə profilaktik dezinfeksiya tədbirlərinin görülməsi, ictimai yerlərdə qurbanlıq heyvanların icazəsiz kəsilməsinə, satışının təşkilinə və kütləvi daşınmasına yol verilməməsinə ciddi şəkildə nəzarət edilsin;
5. Qurban bayramı günlərində müəyyən olunmamış yerlərdə qurbanlıq heyvanların satışı və kəsiminin qarşısının alınması ilə bağlı monitorinq qrupları yaradılsın ( məlumat əlavə olunur)
6. Sərəncamdan irəli gələn məsələləri öz üzərimdə saxlayıram.

**Elxan Allahverdiyev**

**ƏSLİ İLƏ DÜZDÜR**
**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** **Sabir Əliyev**

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi rayon İcra Hakimiyyəti
SƏNƏDLƏR ÜÇÜN

Scanned with CamScanner